# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 640 saylı 30 sentyabr 2016-cı il tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060404 – İqtisadiyyat**

**BAKI – 2016**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060404 – İqtisadiyyat** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060404 – İqtisadiyyat** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

## 2. 060404 – İqtisadiyyat ixtisasının xarakteristikası

**2.1.** Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060404 – İqtisadiyyat**<br>**İxtisaslaşmalar:**<br>*- İqtisadi kibernetika*<br>*- İqtisadi nəzəriyyə*<br>*- İqtisadi-riyazi modelləşdirmə*<br>*- İqtisadiyyatın tənzimlənməsi*<br>*- İqtisadiyyatın hüquqi tənzimlənməsi*<br>*- Qiymətləndirmə*<br>*- Aqrar sahənin iqtisadiyyatı*<br>*- Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırma*<br>*- Ətraf mühitin iqtisadiyyatı*<br>*- Təhsil, elm və sosial-mədəni sahənin iqtisadiyyatı*<br>*- Makroiqtisadi siyasət*<br>*- Turizmin iqtisadiyyatı*<br>*- Ekonometriya*<br>*- Mədəniyyətin iqtisadiyyatı*<br>*- Əməyin iqtisadiyyatı* | **Magistr** | **2 il** | **120** |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

### 3.1. Magistrin ixtisas xarakteristikası

Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

### 3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- özünün intellektual, ümümmədəni və peşə hazırlığı səviyyəsini təkmilləşdirib inkişaf etdirmək **(ÜK-1);**
- kütləvi və elmi natiqlik vərdişlərinə yiyələnmək **(ÜK-2);**
- digər sahələrin mütəxəssisləri, elmi nümayəndələri ilə ünsiyyət qurmaq **(ÜK-3);**
- işgüzarlıq, peşəkarlıq, ünsiyyət vasitəsi kimi Azərbaycan və xarici dillərdən sərbəst istifadə etmək **(ÜK-4);**
- təşkilati-idarəetmə qərarlarını qəbul edib, onun nəticələrini müəyyənləşdirmək və buna görə məsuliyyət daşıına **(ÜK-5);**
- müasir proqram-informasiya təminatlarından milli iqtisadiyyatın ayrı-ayrı sahə və sferalarının inkişaf, idarə edilməsi və tənzimlənməsi proseslərinin həllində istifadə etmək **(ÜK-6);**
- kollektivdə işləmək qabiliyyəti **(ÜK-7);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq qabiliyyəti (**ÜK-8);**
- fəal sosial mobillik **(ÜK-9);**

- beynəlxalq arenada işləmək qabiliyyəti **(ÜK-10).**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq istənilən istehsal, sosial-mədəni və xidmət sahələri, təşkilatlar, firma, müəssisələrdə, habelə, iqtisadi bloka daxil olan milli və beynəlxalq qurumlarda, nazirliklərdə, şirkətlərdə sosial-iqtisadi proseslərin təşkili, idarə olunması və tənzimlənməsi ilə bağlı nəzəri-metodoloji, habelə analitik iş metoduna və ümumən sistemli biliyə malik olmaq **(PK-1);**
- elmi-tədqiqatların aparılmasının iş planı və proqramlarının işlənməsini həyata keçirmək, fərdi və tədqiqatlar qrupları üçün tapşırıqlar hazırlamaq **(PK-2);**
- peşə istiqamətinə uyğun olaraq öz fəaliyyətini elmi əsaslarla təşkil etmək, təhlil etmək, nəticələr çıxarmaq, əldə olunan məlumatları kompyuter üsulu ilə işləmək qabiliyyəti **(PK-3);**
- milli iqtisadiyyatın ayrı-ayrı sahə və sferalarının inkişafı, proqnozlaşdırılması, modelləşdirilməsi, tənzimlənməsi, qiymətləndirilməsi sahəsində, ətraf mühitin qorunması, turizmin inkişafı, əməyin iqtisadiyyatı sahəsində nəzəri-metodoloji və əməli xarakterli tədqiqatlar aparmaq, mexanizmlərini, prinsiplərini müəyyənləşdirmək, modelləşdirmək, proqnozlaşdırmaq, reallaşdırmaq, onların nəticələrini dəyərləndirmək və bu prosesin səmərəliliyini artırmaqla bağlı konkret tədbirlər planı hazırlamaq **(PK-4);**
- istehsal və sosial-mədəni sahələr üzrə makroiqtisadi siyasəti tənzimləmə, qiymətləndirmə, əməyin iqtisadiyyatı və təşkili, ətraf mühitin qorunması, turizmin və mədəniyyətin inkişafı fəaliyyətinə aid olan proseslərin, obyektlərin nəzəri və iqtisadi, riyazi modellərini işləyib hazırlamaq və reallaşdırmaq **(PK-5);**
- milli iqtisadiyyat, onun ayrı-ayrı istehsal, sosial-mədəni sahələrin, ətraf mühitin mühafizəsi, təşkili, idarə olunması və tənzimlənməsi prosesini əməli cəhətdən reallaşdırmaq üçün normativ-hüquqi sənədlərdən, qanunvericilik aktlarından yaradıcılıqla istifadə etmək **(PK-6);**
- sistemli və kompleks yanaşma əsasında dövlətin makroiqtisadi siyasətini əməli cəhətdən reallaşdırmaq üçün proqnozlaşdırma, proqramlaşdırma, strateji planlaşdırma əsasında iqtisadi-riyazi modellər qurmağı, informasiya texnologiyaları və riyazi üsulların tətbiqini həyata keçirmək qabiliyyəti **(PK-7);**
- innovasiya inkişaf modelinə keçidi stimullaşdırmaq məqsədilə iqtisadi və sosial sahələrin iqtisadiyyatı, inkişafı və idarə olunma fəaliyyətinin qiymətləndirilməsi, bu sferalarda əməyin təşkilli və idarə olunmasının, tənzimlənməsinin nəzəri-metodoloji və reallaşdırılmasının əməli cəhətdən effektiv prinsip, meyar və vasitələrini seçmək və müvafiq modellər qurmaq **(PK-8);**
- elmi-tədqiqat mövzusunun prioritetlərinin seçilməsi, problemlərin qoyuluşunu, tədqiqatın metodologiyasını və tədqiqatların səmərəliliyini müəyyənləşdirmək **(PK-9);**
- öz peşə fəaliyyətini elmi əsaslarla təşkil etmək, informasiya toplamaq, kompyuterdən istifadə metodlarına yiyələnmək və onlardan istifadə etmək **(PK-10);**

***Pedaqoji fəaliyyət üzrə:***

- ali təhsil müəssisələrində, «İqtisadiyyatın tənzimlənməsi», «İqtisadi kibernetika», «İqtisadi nəzəriyyə», «İqtisadi-riyazi modelləşdirmə», «İqtisadiyyatın hüquqi tənzimlənməsi». «Qiymətləndirmə», «Aqrar sahənin iqtisadiyyatı». «Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırılması», «Ətraf mühitin iqtisadiyyatı», «Təhsil, elm və sosial-mədəni sahənin iqtisadiyyatı», «Makroiqtisadi siyasət», «Turizmin iqtisadiyyatı», «Ekonometriya», «Mədəniyyətin iqtisadiyyatı». «Əməyin iqtisadiyyatı» və s. fənlərini tədris etmək **(PK-11);**
- iqtisadiyyat ixtisası üzrə müvafiq tədris proqramları və tədris-metodiki vəsaitləri işləyib hazırlamaq **(PK-12);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilmək **(PK-13);**

*Proqram, layihə və iqtisadi fəaliyyət üzrə:*

- hazırlanmış proqram və layihələrin həyata keçirilməsi üçün tapşırıqları, onların əməli cəhətdən reallaşdırılmasının dövlət mexanizminin müvafiq normativ-hüquqi və qanunvericilik aktlarına əsasən uyğun metodiki sənəd və göstərişlərin və onların hazırlanmasına rəhbərlik etmək **(PK-14);**
- proqram və layihələrin əməli cəhətdən reallaşdırılması üçün konkret tədbirlər sistemini müəyyənləşdirmək **(PK-15);**
- makroiqtisadi siyasətin hazırlanmış proqram və layihələrinin səmərəli həyata keçirilməsi üçün müvafiq sosial-iqtisadi proseslərin tənzimlənməsi, qiymətləndirilməsi, əməyin iqtisadiyyatı və ətraf mühitin mühafizəsini, təşkilinin prioritet istiqamətlərini müəyyənləşdirmək, proqnozlaşdırmaq, modelləşdirmək **(PK-16);**
- milli iqtisadiyyatın, eləcə də şirkətlərin, müəssisələrin, firmaların, sosial və xidmət sferalarının, habelə icra strukturu və nazirliklərin iqtisadi blokuna daxil olan qurumlarda müvafiq plan-proqramların, hazırlanması və reallaşdırılmasının mexanizminin prinsiplərini və yollarını müəyyənləşdirmək **(PK-17);**

*Təşkilati-inzibatçılıq fəaliyyət üzrə:*

- makro, mezo və mikro səviyyədə milli iqtisadiyyatın sahələrinin müxtəlif institutsional qurumlarında dəyişən şəraitə və tələbə uyğun olaraq makroiqtisadi siyasətin və strategiyanın ümumi qanunauyğunluqlarını, xüsusiyyətlərini müəyyənləşdirməklə işlənib hazırlanan konsepsiyaya rəhbərlik etmək **(PK-18);**
- milli iqtisadiyyatın müxtəlif sahə və sferalarında sosial-iqtisadi inkişaf prosesini effektiv reallaşdırmaq üçün riyazi, informativ üsullardan, modellərdən bacarıqla istifadə etmək **(PK-19);**
- müxtəlif səviyyəli institutsional qurumlarda sosial-iqtisadi proseslərin ətraf mühitin mühafizəsinin ölkədə reallaşdırılan tənzimləmə modelinə uyğun olaraq həyata keçirilməsinə rəhbərlik etmək **(PK-20);**
- milli iqtisadiyyatın müxtəlif səviyyələrində sosial-iqtisadi proseslərin təşkili, idarə olunması, tənzimlənməsi, əmlak və potensialın qiymətləndirilməsi prosesi ilə bağlı qəbul edilmiş normativ-hüquqi sənədlərə, aktlara, bağlanmış müqavilələrin yerinə yetirilməsinə nəzarət etmək və onlara riayət edilmədiyi halda müvafiq inzibati-hüquqi tədbirlər görmək **(PK-21);**
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyə **(PK-22);**
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmağa, onların qısa və uzunmüddətli nəticələrini təhlil etməyə **(PK-23);**
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilməyə, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilməyə **(PK-24);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilməyə, həmçinin potensial nəticələri müəyyənləşdirmək və ya qiymətləndirə bilməyə **(PK-25);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirməyə **(PK-26);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmağa, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilməyə **(PK-27);**
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərməyə **(PK-28);**
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımağa **(PK-29);**
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilməyə, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamağa, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmağa **(PK-30);**
- davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirməyə, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilməyə **(PK-31).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası

**4.1.1. 060404 – İqtisadiyyat** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- elmi-tədqiqat;

- pedaqoji;
- proqram, layihə və iqtisadi;
- analitik;
- təşkilati-inzibatçılıq və s.

**4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**
***Elmi-tədqiqat sahəsi üzrə:***

- milli iqtisadiyyatın ayrı-ayrı sahə və sferalarında real sosial-iqtisadi proseslərin öyrənilməsində, qiymətləndirilməsində, tənzimlənməsində əməyin iqtisadiyyatı və təşkilinin, ətraf mühitin mühafizəsi, habelə makroiqtisadi siyasətin formalaşdırılması, iqtisadi nəzəriyyə baxımından əsaslandırılması və reallaşdırılması ilə bağlı aktual problemlərini tədqiq etmək.
- milli iqtisadiyyatın müxtəlif istehsal, sosial və xidmət sahələrində, habelə ətraf mühitin mühafizəsi ilə bağlı zəruri normativ-hüquqi sənədlərin, qanunvericilik aktlarının işlənməsi üçün elmi nəşrlərin hazırlanması və mövcud informasiyanı ümumiləşdirmək.
- elmi-tədqiqat mövzularının araşdırılaraq prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, toplanması, sistemləşdirilərək müvafiq nəticələrin çıxarmaq;
- fərdi icraçılar və struktur bölmələri üçün zəruri tapşırıqların hazırlamaq;
- makro, mezo və mikro səviyyədə müvafiq hesabat məlumatlarından istifadə etməklə iqtisadiyyat sahələrində dövlət tənzimlənməsinin, əməyin iqtisadiyyatı və təşkili, iqtisadi fəaliyyətin qiymətləndirilməsi, iqtisadi-riyazi modelləşmənin mövcud vəziyyətini, nəzəri-metodoloji və əməli baxımdan təhlil etmək.

***Pedaqoji fəaliyyət üzrə:***

- mühazirə oxumaq;
- seminar aparmaq.

***Analitik fəaliyyət üzrə:***

- milli iqtisadiyyatın müxtəlif səviyyə və sferalarında, ətraf mühitin və təbiətdən istifadənin sosial-iqtisadi inkişafının strategiyasını, konsepsiyasını, habelə qiymətləndirilməsini, taktikasını, tənzimlənməsini əməyin iqtisadiyyatı və təşkilinin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirib, dəyərləndirmək.
- iqtisadiyyatın ayrı-ayrı sosial-iqtisadi və xidmət sferalarında müxtəlif iqtisadiriyazi modellərdən, ekonometrik vasitələrdən istifadə etməklə müvafiq göstəricilər sistemini sistemli təhlil edərək nəzəri və əməli baxımdan dəyərləndirmək.
- milli iqtisadiyyat və onun ayı-ayrı sahə və sferalarının, ətraf mühitin iqtisadiyyatı və mühafizəsini tənzimlənməsi, qiymətləndirilməsi və bu sahələrdə əməyin iqtisadiyyatı və təşkilinin normal fəaliyyətini təmin etmək üçün nəzərdə tutulan tədbirlərə, prinsiplərə, ümumən normativ-hüquqi sənədlərin tələblərinə uyğun reallaşdırılmasına zəruri nəzarəti həyata keçirmək;

***Təşkilati-inzibatçılıq fəaliyyəti üzrə:***

- iqtisadiyyatın ayrı-ayrı sahə və sferalarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müxtəlif səviyyələrdə işlənib-hazırlanan konsepsiyaya və taktiki tədbirlərə rəhbərlik etmək;
- sosial-iqtisadi xidmət sahələrinin, habelə milli iqtisadiyyatın digər institusional bölmələrində iqtisadiyyatın təşkili və idarə olunması, tənzimlənməsi ilə bağlı müvafiq qurumlara rəhbərlik etmək;
- iqtisadiyyatın sahə və sferaları üzrə hazırlanmış və təsdiq edilmiş maliyyə və digər resurslardan təyinatına görə səmərəli istifadə etmək;

**4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər**

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **MİF – B00** | **İxtisas (ixtisaslaşma) fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- müasir iqtisad elminin əldə etdiyi nailiyyətləri sistemləşdirilmiş şəkildə şərh etməyi, yeni iqtisadi sistemlərin transformasiya prosesinin qanunauyğunluqlarını və metodoloji prinsiplərini, mikro və makro iqtisadi problem və modellərin sistemli şəkildə şərhini, qlobal qeyri-sabitlik şəraitində iqtisadi artımın və təhlükəsizliyin qorunması siyasətini, işgüzar tsiklin idarə olunmasını, uzunmüddətli iqtisadi artımın sürətləndirilməsi yollarını;<br>- iqtisad elminin və iqtisadiyyatın fəlsəfi-metodoloji aspektdən dəyərləndirilməsini, mövcud nəzəri və metodoloji problemlərin konseptual qiymətləndirilməsini, müxtəlif yanaş-maların müqayisəli təhlili və nəzəri ümumilədirilmələrin aparılması metodikasını, iqtisadiyyatın sistemli yaranış keyfiyyətində ictimai həyatın digər sfera və sahələri ilə inteqrativ bağlılığının fəlsəfi interpretasiyasını;<br>- makroiqtisadi səviyyədə sosial-iqtisadi proseslərin tənzimlənməsinin elmi-metodoloji əsaslarını, əməli problemlərini, optimal həll yollarını, qanunauyğunluqlarını, xüsusiyyətlərini, tənzimləmə siyasətinin reallaşdırılmasının mexanizmlərini, prinsiplərini, meyarlarını, onların tətbiqinin məntiqi ardıcıllığını;<br>- ekoloji təhlükəsizlik qaydalarını, hüquqi maddi və texnoloji təminat məsələlərini, bu sahədə dövlətin qəbul etdiyi qanunları, normativləri;<br>- qiymətin əmələ gəlməsinin və qiymətləndirmənin əsas anlayışlarını, yanaşma və metodlarını, qiymətləndirmə fəaliyyətinin qanunvericilik bazarını, qiymətlərin iqtisadi tənzimlənməsi və idarə edilməsi metodlarını;<br>- sosial sahələrin formalaşması, hüquqi əsaslarını və idarə olunmasını, sosial sahələrin maliyyə problemlərini, təşkilatı quruluşunu və inkşaf meyllərini, sosial müdafiə problemlə-rini və onların təşkili mexanizmlərini, sosial sferanın rolu və perspektivini və qiymətləndirmək metodlarını;<br>- qloballaşma şəraitində müasir dünyanın ərzaq probleminin iqtisadi mahiyyətini və əsas xüsusiyyətlərini, öl-kələr üzrə milli ərzaq təhlükəsizliyinin dəyərləndirilməsini, bazar iqtisadiyyatının müasir mərhələsində inkişaf etmiş və etməkdə olan ölkələrdə ərzaq təminatının müasir vəziyyə-tini və inkişaf meyllərini, dünya ərzaq təhlükəsizliyi yönü-mündə BMT-nin istiqamətləndirici və tənzimləyici funk-siyasını, dünya ərzaq probleminin həlli baxımından müasir aqrar siyasətin əsas istiqamətləri və bu yönümdə bey-nəlxalq təcrübə və onun xarakterik xüsusiyyətlərini; | **60** | **MİF-B01** *İqtisad elminin müasir problemləri*<br><br>**MİF-B02** *Tədqiqat metodları*<br><br>**MİF – B03** *Ali məktəb tərəfindən müəyyən edilən fənlər** | **6**<br><br>**6**<br><br>**48** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7 PK-8 PK-9 PK-10 PK-11 PK-12 PK-13 PK-14 PK-15 PK-16 PK-17 PK-18 PK-19 PK-20 PK-21 PK-22 PK-23 PK-24 PK-25 PK-26 PK-27 PK-28 PK-29 PK-30 PK-31** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - əmək iqtisadiyyatının ümumi və xüsusi problemlərini, həmin problemlərə sistemli yanaşmanı, insan resursları, əməyin səmərəliliyi, əməyin təşkili, əməyin sosiologiyası və digər məsələləri;<br>- iqtisadi sistemin optimal idarə edilməsi məsələsinin qoyuluşunu və optimallıq kriteriyalarının seçilməsini.<br>**bacarmalıdır:**<br>- riskin və qeyri-müəyyənliyin iqtisadi mahiyyəti, oyunlar nəzəriyyəsinin məzmununu izah etməyi, alternativ strategiyanın müəyyənləşdirilməsini, gəlirlərin bölgüsü və yoxsulluğa qarşı mübarizənin istiqamətləri, qeyri-bərabərliyi törədən səbəblər, amillər və mənbələri aşkar etməyi, makroiqtisadiyyatın əsas prinsipləri, dövlətin iqtisadi siyasəti və onun xarici ticarətin və milli iqtisadiyyatın inkişafına olan təsirini müəyyənləşdirməyi;<br>- iqtisadi proses və hadisələrin konseptual məzmununu tam və dolğun şəkildə üzə çıxarmağı, konseptual yanılmalara yol verilməməyi, aparılan tədqiqatların fəlsəfi metodoloji yönümünü, o cümlədən problemlərin tədqiqat metodları və şərhi üsullarını müəyyən etməyi, onların inkişaf təməyyülləri və perspektivləri haqqında əsaslandırılmış biliklər sistemini formalaşdırmağı;<br>- milli iqtisadiyyatın tənzimlənməsinin məqsədlərini, prioritetlərinin seçilməsini, onların əməli cəhətdən reallaşdırılmasının hədlərini, imkanlarını, vasitələrini və mexanizmlərini müəyyənləşdirməyi, bu sferaya aid zəruri informasiya toplamağı, işləməyi, alınan nəticələri dəyişdirməyi və müvafiq qərarlar qəbul etməyi;<br>- istehsalatda və həyatda ekoloji təhlükələrdən qorunma yollarını, mühafizə tədbirlərini və onların düzgün qiymətləndirilməsini;<br>- əmlak növlərinin mövcud yanaşma və üsullar əsasında məqsədli qiymətləndirilməsinin aparılmasını, milli və beynəlxalq qiymətləndirmə standartlarınının tətbiqini, əmtəə və xidmətlərinin, qiymətlərin (tariflərin) hesablanmasını, əmlak sövdələşmələrinin sistemli təhlilini;<br>- sosial sferanın idarə olunmasında texnologiyaların tətbiqi, sosial sahələrin proqnozunu, sosial sahələrin idarə edilməsinin prinsip və metodlarını əsaslandırmağı;<br>- elmi-tədqiqatların aparılma mexanizmini işləyib həyata keçirməyi, magistr təhsil proqramları və tədris-metodik vəsaitləri işləyib hazırlamağı;<br>- iqtisadi sistemin optimal idarə edilməsi məsələsinin iqtisadi riyazi modellərinin qurulması, həll alqoritmlərinin seçilməsi və bu alqoritmlərə görə modellərin həllinin təmin olunması;<br>**yiyələnməlidir:**<br>- iqtisadiyyatın tənzimlənməsi sahəsində əməli fəaliyyət vərdişlərinə, elmi tədqiqat işlərinin aparılmasının metod və metodologiyasına, beynəlxalq və milli təcrübəyə uyğun olaraq iqtisadiyyatın tənzimlənməsində tələb olunan normativ-hüquqi akt və sənədləri hazırlamaq və ya onlara rəhbərlik etmək qabiliyyətinə;<br>- ekoloji təhlükəsizlik sahəsində əməli bilik və bacarıqlara, ekoloji təhsilə, ekoloji şüura, mədəniyyətə və onların tətbiqi yollarına;<br>- qiymət strategiyasının işlənilməsində və əmlak növlərinin qiymətləndirilməsində mövcud yanaşma, metod, üsul və standartlarına tətbiqi səriştəsinə, müvafiq əməliyyatların | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yerinə yetirilməsi üçün zəruri informasiyanın toplanması və emalının müasir üsullarından istifadə etmək vərdişlərinə;<br>- sosial konsepsiyanın və sosial inkişafın mahiyyətinə, iqtisadi və sosial nəzəriyyələrə, praktik təcrübəyə, qərar qəbulu bacarığına, sosial sferada təhsil, səhiyyə, mədəniyyət sahələrinin idarə olunması bacarığına;<br>- özünün intelektual, ümummədəni və peşə hazırlığı səviyyəsini təkmilləşdirib, elmi-natiqlik vərdişlərinə;<br>**- i**qtisadi sistemlərin optimal davranışı və inkişafı strategiyasının qurulması və bu strategiyasının real iqtisadi şəraitə adekvatlığının təmin edilməsinə. | | | | |
| | **Tədqiqat və Təcrübə Hissəsi** | | | | |
| **MET – B00** | **Elmi-tədqiqat işləri**<br>Magistr tədqiqatlar, kommunikasiya və innovasiya, tədqiqat işlərinin aparılması dərslərini mənimsədikdən və elmi-tədqiqat işini yerinə yetirdikdən sonra aşağıdakıları bilməli və bacarmalıdır:<br>- dissertasiya işinin mövzusunu müəyyənləşdirmək<br>- dissertasiya işinin planını hazırlamaq<br>- dissertasiya işinin hazırlanması üçün vaxt qrafikini tərtib etmək<br>- dissertasiya mövzusu ilə bağlı elmi baxımdan əsaslandırılmış tənqidi yanaşma ortaya qoymaq<br>- dissertasiya işində ortaya qoyulan araşdırma problemi ilə bağlı məlumat əldə etmə vasitələrini müəyyənləşdirmək<br>- dissertasiya mövzusu ilə bağlı ədəbiyyatları müəyyənləşdirmək<br>- dissertasiya işinin tədqiqat obyekti ilə bağlı məlumat əldə etmə vasitələrini müəyyənləşdirmək<br>- araşdırma və tədqiqatlarla bağlı akademik etika qaydalarını bilmək<br>- dissertasiya işinin yazı qaydalarını bilmək<br>- məlumat toplama vasitəsindən istifadə edərək məlumatların əldə edilməsi və analizi<br>- dissertasiya işində tətbiq edilən analizlərdən sonra əldə edilən nəticələrin elmi təhlili<br>- əldə olunmuş nəticələrin tətbiq edilməsi imkanlarını müəyyənləşdirməyi;<br>- yerinə yetirilmiş dissertasiya işinin müdafiəsini;<br>- dissertasiya işinin nəticələrinin çapa hazirlanmasını;<br>- elmi-tədqiqat işinin mövzusunun seçilməsi<br>- elmi-tədqiqatların aparılması prosesini bilmək<br>- tədqiqat prosesi zamanı müəyyən edilmiş mövzu haqqında daha əvvəl aparılmış araşdırma və elmi-tədqiqat işlərini nəzərdən keçrimə<br>- məlumatların daha etibarlı mənbələrdən toplanılması üçün ideal məlumat toplama metodlarının seçilməsi bilmək<br>- ehtiyac duyulan əsas və köməkçi məlumatların əldə edilmə mənbələrini və onlardan istifadə üsullarını bilmək<br>- elmi-tədqiqat prosesində xarici ədəbiyyatlardan istifadə edilməsi<br>- elmi-tədqiqat zamanı zəruri müasir proqram təminatlarını və onlardan istifadə qaydalarını<br>- elmi məqalə yazarkən istinadlarda vacib akademik etika qaydalarını bilmək<br>- elmi-tədqiqat prosesinin, araşdırma analizlərinin və nəticələrinin məruzə edilməsi<br>- aparılan elmi-tədqiqatların elmi məqalə halına salınması<br>- elmi jurnallar üçün məqalə və ya elmi konfranslar üçün məruzələrin hazırlanması<br>- məruzələrin təqdim edilməsi<br>- ali məktəb təhsilinin prinsip və məzmununu bilmək | **60** | *Tədqiqatlar, kommunikasiya və innovasiya*<br><br>*Tədqiqat İşinin Aparılması*<br><br>*Elmi-tədqiqat təcrübəsi*<br><br>*Elmi-pedaqoji təcrübə*<br><br>*Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi* | **6**<br><br>**6**<br><br>**6**<br><br>**6**<br><br>**36** | **PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7**<br>**PK – 8**<br>**PK – 9**<br>**PK – 10**<br>**PK – 12**<br>**PK – 15**<br>**PK – 16**<br>**PK - 17** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - tədris prosesinin təşkili və idarə edilməsi metodlarını bilmək<br>- tələbə psixologiyasını və tələbə davranışlarını bilmək<br>- tələbə qiymətləndirmə metodlarını bilmək və bu metodları tətbiq etmək<br>- tədris prosesində istifadə olunan dərs materiallarının hazırlanmasını bilmək<br>- eyni zamanda istifadə olunacaq ədəbiyyatların seçmək və düzgün şəkildə istifadə edə bilmək<br>- imtahanlarda tələbənin qiymətləndirilməsi zamanı istifadə olunan materialların (sualların, keyslərin və s.) hazırlama prosesi və üsullarını bilmək<br>- tədris prosesi zamanı auditoriyada davranış qaydalarını bilmək<br>- tədris prosesi zamanı müasir proqram təminatı vasitələrindən istifadə qaydalarını bilmək.<br>- elmi-tədqiqat və elmi-pedaqoji<br>təcrübələrdə iştirak nəticəsində əldə edilən nəticələrdən dissertasiya işində istifadə etməyi; | | | | |
| | **Kreditlərin ümumi cəmi** | **120** | | **120** | |

** İxtisas və müvafiq İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94

- nəzəri təlim - 30 həftə
- Tədqiqatlar, kommunikasiya və innovasiya, Tədqiqat İşinin Aparılması - 8 həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) - 8 həftə
- imtahan sessiyaları - 10 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi - 28 həftə
- tətillər - 14 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060404 – İqtisadiyyat** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmçinin müvafiq ixtisas üzrə minimum magistr dərəcəsinə sahib və həmin sahədə iş təcrübəsi olan digər müəssisə və təşkilatlarda çalışan şəxslər də cəlb oluna bilər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya müvafiq ixtisas üzrə minimum magistr dərəcəsinə sahib və həmin sahədə iş təcrübəsi olan digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə-seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

6.1. Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

6.2. **060404 – İqtisadiyyat** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

7.1. Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

7.2. Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

7.3. Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.